

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 97 (23.739)

*1 iyun 2021-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Ümumdünya Səhiyyə Təşkilatının əsas qərarverici orqanı olan Ümumdünya Səhiyyə Assambleyasının "Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması" mövzusuna həsr edilmiş 74-cü sessiyası 2021-ci il mayın 24-dən 31-dək virtual şəkildə keçirilib. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusun dəvəti əsasında mayın 31-də sessiyanın bağlanış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim edilib.

Dövlətimizin başçısı çıxışında Azərbaycanda COVID-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktik tədbirlərin həyata keçirilməsi haqqında məlumat verib. Qeyd olunub ki, Azərbaycan bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pisləmişdir.



## Şahmat üzrə qadınlar arasında Azərbaycan çempionatının bağlanış mərasimi keçirilib



*Naxçıvan Muxtar Respublikasında təşkil olunan şahmat üzrə qadınlar arasında Azərbaycan çempionatına yekun vurulub. Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində keçirilən yarışda 12 şahmatçı dairəvi sistem üzrə mübarizə aparıb.*

Çempionatın bağlanış mərasimində çıxış edən yarışın baş hakimi, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev keçirilən çempionat barədə məlumat verib. Bildirilib ki, qalib olan zəka sahibi Azərbaycanı Dünya Kubokunda təmsil edəcək. İkinci və üçüncü yerlərin sahibləri isə şəxsi Avropa çempionatına vəsiqə qazanıblar.

Sonra çempionatda mübarizə aparan qalib şahmatçıların sıralanması oxunub və səhnəyə dəvət olunublar. Onlara Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən hazırlanmış xüsusi rozet və pul mükafatları təqdim olunub.

Yarışın yekun nəticəsinə əsasən qalib adını beynəlxalq usta Gülnar Məmmədova qazanıb. Beynəlxalq usta Gövhər Beydullayeva ikinci, qrossmeyster Zeynəb Məmmədyarova üçüncü olub. Qaliblərə mükafatları Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov, Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov və Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov təqdim ediblər.

Çempionatın qalibi, beynəlxalq usta Gülnar Məmmədova Naxçıvan şəhərində təşkil edilən Azərbaycan çempionatının qalibi olmanın onun üçün ikiqat qürurverici olduğunu, muxtar respublikada qazandığı bu qələbəni bundan sonrakı yarışlarda da doğruldacağını bildirib, təşkilatçılara çempionat iştirakçıları adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov bildirib ki, Azərbaycan çempionatının Naxçıvanda təşkili xüsusi aya təsadüf edir. Belə ki, may ayı ümummilli liderimiz Heydər Əliyevin doğum günüdür və bu ayda ölkə birinciliyinin burada keçirilməsi böyük önəm kəsb edir. Eyni zamanda bütün dünyada baş verən pandemiya ilə bağlı Naxçıvan Muxtar Respublikasında vəziyyət sabitdir.

Seymur Talıbov vurğulayıb ki, Azərbaycan çempionatında naxçıvanlı şahmatçıların da iştirakı təqdirəlayiq haldır. Çünki şahmatçılarımız ölkənin ən güclü şahmatçıları ilə mübarizə apararaq yarış təcrübələrini artırdılar. Seymur Talıbov çempionatda iştirak edən bütün şahmatçıları təbrik etmiş, onlara gələcək yarışlarda uğurlar arzulamışdır.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollektivi adından bütün şahmatçıları və qonaqları salamlayan nazir müavini İsmayıl İsmayılov bildirib ki, Azərbaycan çempionatı nazirlik üçün ən mötəbər turnirlərdən hesab edilir. Bu yarışın Naxçıvan Muxtar Respublikasında təşkilini isə xüsusi olaraq vurğulamaq lazımdır. Pandemiya olmasına baxmayaraq, yarış ərzində hər bir kiçik nüansa xüsusi diqqət yetirilib və yarışın keçirilməsində heç bir problem olmayıb. Hər il may ayında Naxçıvan Muxtar Respublikası böyük yarışlara ev sahibliyi edir və hər bir turnir, yarış, çempionat yüksək təşkilatçılığı ilə seçilir. Nazir müavini yaradılan şəraitə, belə bir yarışa yüksək səviyyədə ev sahibliyinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasına təşəkkür edib.



Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov çıxışında vurğulayıb ki, artıq bir aydır, şahmatçılar Naxçıvandadır. Belə desək, bu ay Naxçıvan şahmatın əsl məkanına çevrilib. İstər kişilər, istərsə də qadınlar arasında Bakıdan kənarda keçirilən ölkə birinciliyi yüksək səviyyədə təşkilatçılığı ilə seçildi. Bu yarış yalnız dünyanın sayılıb-seçilən beynəlxalq turnirləri ilə müqayisə oluna bilər.

Sonda şahmatçılarla xatirə şəkli çəkdirilib.

**"Şərq qapısı"**

## Araz və Mil-Muğan su anbarlarının birgə istifadəsinin 50-ci ildönümü qeyd edilib

***Araz çayı boyunca inşa edilmiş Araz və Mil-Muğan su anbarlarından birgə istifadə edilməsinin 50 illiyi münasibətilə yubiley mərasimi keçirilib.***



Azərbaycan və İran İslam Respublikasının hökumət nümayəndələrinin iştirakı ilə təşkil edilmiş mərasim ərazidəki sərgi ilə tanışlıqdan başlanıb. Tədbirdə Azərbaycan tərəfdən Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov, İran tərəfdən isə Şərqi Azərbaycan vilayətinin valisi Mohammad Reza Pour Mohammadi açılış nitqləri ilə çıxış ediblər. Araz çayı üzərində Azərbaycan və İran tərəfindən tikilərək 1971-ci ildə birgə istismara verilmiş, həcmi 1 milyard 350 milyon kubmetr olan Araz su anbarı, həmçinin Araz SES və hər iki ölkənin ərazisində 400 min hektar sahənin suvarılmasını təmin edən Mil-Muğan su anbarının regional əməkdaşlığın inkişafında əhəmiyyəti diqqətə çatdırılıb.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov deyib: "Bu gün ölkə prezidentlərinin iradəsinə uyğun olaraq həyata keçirilən birgə layihələr əlaqələrimizi daha da möhkəmləndirir. Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində Araz və Mil-Muğan su anbarlarının dostcasına birgə istifadəsinin 50 illiyinin xüsusi mərasimlə qeyd edilməsi əlaqələrimizin möhkəm tarixi köklər üzərində daha da inkişafının göstəricisidir".

Şərqi Azərbaycan vilayətinin valisi Mohammad Reza Pour Mohammadi bildirib: "Bu gün həm mədəni sərvət, həm də bölgə insanları üçün iqtisadiyyatın həyat arteriyası olan, bir çaydan daha üstün məna daşıyan Araz çayı ətrafında toplaşmışıq. Bu çay geniş əməkdaşlığımız üçün üzümüzə açılan böyük bir dünyanın nümunəsidir. Əməkdaşlıq bundan sonra daha inamla davam etdiriləcək. Dağlıq Qarabağ münaqişəsinin bitməsini və bölgədə davamlı sülhün bərqərar olmasına dair razılıqları nəzərə alaraq bütün ölkələrin əməkdaşlığı üçün yaxşı bir fürsət yaradılıb. Azərbaycanla hər cür əməkdaşlığa hazırıq".

Tədbirdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov və İran İslam Respublikasının Energetika nazirinin su məsələləri üzrə müavini Ghasem Taghızadeh də çıxış edib. Zaur Mikayılov əmin olduğunu vurğulayıb ki, mövcud su ehtiyatlarından daha səmərəli istifadənin təmin olunması, su təminatında yarana biləcək çətinliklərin vaxtında qarşısının alınması və hər iki dövlətin su və enerjiyə olan tələbatının ödənilməsi məqsədilə bu sahədə fəaliyyət bundan sonra da uğurla davam etdiriləcək. Ghasem Taghızadeh isə iki ölkə arasında Araz çayı üzrə əməkdaşlığın və rəğbətli münasibətin bütün dünyada sülh və dostluğun gözəl nümunəsi ola biləcəyini deyib.

Azərbaycan Respublikasının Energetika naziri Pərviz Şahbazov da çıxışında Araz və Mil-Muğan su anbarlarını ölkələrimiz üçün sosial-iqtisadi obyektlərdən daha çox uzunmüddətli əməkdaşlıq körpüsü adlandırıb: "Araz və Mil-Muğan su anbarları, Araz SES, eləcə də Araz çayı üzərində yeni layihələrin nümunəsində əminliklə deyə bilərik ki, Azərbaycan və İran öz aralarındakı sərhədi davamlı şəkildə birgə əməkdaşlıq imkanlarına uğurla çevirən ölkələrdir. Yarım əsr ərzində bu infrastrukturlar paritet əsasda hər iki ölkənin maraqlarına xidmət edərək Azərbaycan-İran təcrübəsində transsərhəd sulardan istifadənin də örnək modelini formalaşdırıb".

Nazir Pərviz Şahbazov mürəkkəb bir dövrdə belə strateji əhəmiyyətli layihələrin ərsəyə gəlməsində ulu öndər Heydər Əliyevin misilsiz rolunu vurğulayıb. Azərbaycan tərəfi üçün ümumi gücü 22 MVt olan Araz SES-in o dövrdə ölkəmizin enerji təminatına mühüm töhfə verdiyini diqqətə çatdırıb. Energetika naziri bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin regionda yeni reallıqlar yaradan siyasəti nəticəsində hazırda Araz çayının su və energetika ehtiyatlarının birgə istifadəsi ilə bağlı əməkdaşlığımız "Xudafərin", "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyaları, eləcə də digər layihələrlə genişlənərək yeni inkişaf mərhələsinə daxil olub. "Azərbaycanın əzəli torpaqlarının işğaldan azad edilməsi və tarixi sərhədlərinin bərpası ilə regionda yaranmış yeni geosiyasi reallıqlar və təhlükəsiz inkişaf mühiti bu layihələrin icrası istiqamətində maneələri artıq aradan qaldırıb. Bu layihələrin icrası uzaqgörən siyasətin, dəqiq hesablanmış strateji yanaşmanın məhsulu olmaqla bərabər, hər iki dövlət üçün Araz çayının əhəmiyyətini daha da artırır. Yaxın gələcəkdə ümumi qoyuluş gücü 200 MVt olan "Xudafərin" və 80 MVt gücündə "Qız Qalası" Su Elektrik stansiyaları tikiləcək. Nəticədə, biz ildə, ümumən, 716 milyon kilovat-saat elektrik enerjisi istehsal edə biləcəyik".

İran İslam Respublikasının Energetika naziri Reza Ardakanian bildirib: "Araz və Mil-Muğan su anbarlarının istismara verilməsinin 50-ci ildönümü İran və Azərbaycan arasındakı dərin dostluq əlaqələri və əməkdaşlıq münasibətlərini ifadə edir. Şübhəsiz, Araz çayı İran və Azərbaycan arasında hər iki qonşu dövlətin əhalisinin qan damarı kimi ortaq sərhədin mühüm hissəsində sülh və dostluğun simvoluna çevrilib".

Mərasimdə Araz və Mil-Muğan su anbarlarının istismarı və birgə əməkdaşlıq tarixinə dair hər iki ölkə tərəfindən hazırlanmış qısametrajlı sənədli filmlər nümayiş etdirilib. Yekunda Araz və Mil-Muğan su anbarlarının istismarı üzrə birgə komissiyanın və 50-ci görüşün protokolu imzalanıb.

**AZƏRTAC**

# Muxtar respublikada uşaqlar dövlət qayğısı ilə əhatə olunublar

*1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycan Respublikasında da qeyd edilir.*

Ölkəmizdə dövlət uşaq siyasətinin formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanın inkişafını uşaqların düzgün yetişdirilməsində görən ulu öndər deyirdi: ***“Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır”.***

Ulu öndərin ölkəmizə rəhbərliyinin hər iki dövründə uşaqlara xüsusi diqqət yetirilməsi, uşaqlarla bağlı sosial təsisatlar şəbəkəsinin qurulması, genişləndirilməsi uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşdirilməsinə və sağlamlıqlarının qorunmasına öz müsbət təsirini göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu gün dövlət uşaq siyasətini uğurla davam etdirir. Ölkə başçısının rəhbərliyi ilə gənc nəslin təlim-tərbiyəsinin yüksəldilməsinə yönəlmiş çoxsaylı Dövlət proqramları qəbul edilib, uşaq hüquqlarının etibarlı təminat mexanizmləri yaradılıb, ölkənin sürətli inkişafı üçün uşaqların təhsili və intellektual inkişafı istiqamətində önəmli layihələr həyata keçirilir.










Xalqın gələcəyi olan uşaqlara diqqət və qayğını yüksək qiymətləndirən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***“Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir”.***

Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir. “Uşaqların icbari dispanserizasiyası haqqında”, “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi, təhsil qanunvericiliyində, sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı qanunvericilik sistemində yeni təminatların təsbit edilməsi dövlətin uşaqlara olan diqqətinin göstəricisidir.

Naxçıvan Muxtar Respublikasında da uşaqlara hərtərəfli qayğı göstərilir, onların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili və cəmiyyətin ictimai-mədəni həyatındakı iştiraklarının təmin edilməsi diqqətdə saxlanılır. Bu gün muxtar respublika əhalisinin 36 faizi və ya 165 min 288 nəfəri uşaqlardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“O cəmiyyət möhkəmdir ki, o dövlət inkişaf edərək irəli gedir ki, o xalq xoşbəxt gələcəyə malikdir ki, orada uşaqlara qayğı var”.***

Muxtar respublikada uşaqların təhsili daim diqqət mərkəzində saxlanılır, bir-birinin ardınca istifadəyə verilən müasir maddi-texniki bazaya malik təhsil ocaqları təhsilin keyfiyyətinin yüksəldilməsinə, yüksəkixtisaslı kadr potensialının artırılmasına şərait yaradır. Müstəqillik illərində muxtar respublikada 200-dən çox ümumtəhsil məktəbi tikilmiş və ya yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda ümumtəhsil məktəblərində 650-dən çox elektron lövhə quraşdırılmışdır ki, bu da uşaqların müasir təhsil sistemi əsasında biliklərə yiyələnməsinə şərait yaratmışdır. Yaradılan şəraitin nəticəsidir ki, ötən il ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 1516-sı ali təhsil müəssisələrinə, 683-ü orta ixtisas təhsili müəssisələrinə, Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 182 nəfəri isə müxtəlif ali hərbi məktəblərə daxil olmuş, ali məktəblərə qəbul olunan 275 nəfər 500-700 arası bal toplamışdır. Bu gün uşaqların peşə təhsilinə cəlbi də qarşıda duran əsas vəzifələrdəndir. Təkcə 2020-2021-ci tədris ilində 149-dan çox uşaq bacarıqlarına uyğun peşə və ixtisaslara yönləndirilmişlər.

Uşaqların təhsili ilə yanaşı, onların sağlamlıqlarının qorunması, fiziki inkişaflarının təmin olunması istiqamətində də tədbirlər görülür. Muxtar respublikada müasir standartlara uyğun olimpiya idman kompleksləri, üzgüçülük və şahmat mərkəzləri, uşaq-gənclər şahmat məktəbləri, uşaq-gənclər idman məktəbləri, stadionlar, peyntbol meydançası, ümumtəhsil məktəblərində müasir idman zalları və digər idman avadanlıqları istifadəyə verilmişdir. Yaradılan şəraitin bəhrəsidir ki, hazırda muxtar respublikada 25 mindən çox uşaq idmanla məşğul olur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Gənc İstedadların “Qızıl kitabı”nın yaradılması, istedadlı uşaqların adlarının bu kitaba yazılması və onlara xüsusi təqaüdlərin verilməsi də göstərilən qayğının daha bir ifadəsidir. Qeyd edək ki, ötən il ərzində 2 istedadlı uşaq olmaqla, ümumilikdə, 13 uşağın adı bu kitaba yazılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Oxunması zəruri olan kitablar haqqında” 2017-ci il 28 avqust tarixli Sərəncamı da gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edir.

Uşaqların sağlamlığının qorunması da diqqət mərkəzində saxlanılmışdır. Belə ki, uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və avadanlıqlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və əhali arasında geniş maarifləndirmə işinin aparılması istiqamətlərində mühüm addımlar atılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın qəbul olunması bu sahədə atılan mühüm addımlardan biridir. Həyata keçirilən tədbirlər nəticəsində uşaqlar arasında infeksion xəstəliklər və ölüm səviyyəsi nəzərəçarpacaq dərəcədə azalmışdır.

Uşaq hüquqlarının qorunması istiqamətində də ardıcıl tədbirlər görülmüşdür. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası” təsdiq edilmiş, uşaq hüquqlarının müdafiəsi üçün dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmiş, monitorinq qrupu yaradılmışdır.

Muxtar respublikada valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar da xüsusi qayğı ilə əhatə olunur, himayə və qəyyumluğa verilən uşaqların evlərində mütəmadi olaraq monitorinqlər təşkil edilir, yaşayış şəraitləri öyrənilir, zəruri ehtiyacları üçün lazımi köməklik göstərilir. Bu kateqoriyadan olan uşaqlara dövlətin göstərdiyi diqqət və qayğının nəticəsidir ki, 2020-ci ildə ümumtəhsil məktəblərini bitirmiş uşaqlardan 2-si ali təhsil müəssisələrinə qəbul olmuşdur.

“Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”na uyğun olaraq Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı təşkil edilmiş, indiyədək 35 mindən artıq uşaq haqqında fərdi məlumatlar banka daxil edilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi, cəmiyyətə fəal inteqrasiyası məqsədilə bu gün muxtar respublikada müvafiq tədbirlər həyata keçirilir. Belə ki, “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” qəbul edilmiş, hazırda bu proqramın icrası ilə bağlı müvafiq tədbirlər görülür.

Bu gün ümumtəhsil məktəblərində müvafiq kateqoriyadan olan 918, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 9, Distant Tədris Mərkəzində 18 uşaq təhsil alır. Bundan əlavə, həmin kateqoriyadan olan uşaqların təhsilinin təşkili sahəsində görülən işlərin nəticəsidir ki, 2020-2021-ci tədris ilində 6 uşaq Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, 21 uşaq ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəbəqədər hazırlıq qruplarına, 17 uşaq uşaq bağçalarına cəlb edilmiş, yüzlərlə uşaq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin müxtəlif dərnəklərinə, şahmat məktəblərinə, məktəbdənkənar müəssisələrin dərnəklərinə, idman məktəblərinə cəlb olunmuşlar. 2020-ci il ərzində 620 sağlamlıq imkanları məhdud uşaqla əlaqə saxlanılmış, 63 uşaq məktəbəqədər, məktəb, məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə yönləndirilmişdir. Görülən işlərin nəticəsidir ki, ümumtəhsil məktəblərini bitirən sağlamlıq imkanları məhdud uşaqlardan 11 nəfəri orta ixtisas təhsili müəssisələrinə, 18 nəfəri isə ali təhsil müəssisələrinə qəbul olunmuşdur.

Uşaqların vətənpərvərlik ruhunda böyüməsində, milli dəyərlərimizi mənimsəməsində və dünyagörüşlərinin formalaşmasında uşaq ədəbiyyatını mütaliə etmək mühüm əhəmiyyət kəsb edir. Buna görə də muxtar respublikada müasir ədəbiyyat bazasına malik olan elektron kitabxanalar istifadəyə verilir, uşaqlar üçün kitablar nəşr olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə “Uşaqlar və Günəş” almanaxı, “Gəncliyimiz-gələcəyimiz”, “Təmsillər”, “Şeir və hekayələr”, “Şeirlər”, “Poema və pyeslər”, “Naxçıvan bəstəkarlarının uşaq mahnıları”, “Sevimli dostlarım kitablar”, “İstedadlı şagirdlər”, “Göy qurşağı” adlı uşaq kitablarının nəşr olunması uşaqlarda mütaliə mədəniyyətinin formalaşmasına göstərilən diqqətin bariz nümunəsidir.

Muxtar respublikada uşaqlara göstərilən diqqət və qayğının nəticəsində dövlət uşaq müəssisələrində valideynləri tərəfindən tərk edilmiş, erkən nikaha və uşaq əməyinə cəlb olunmuş, məktəbdən yayınan, cinayət məsuliyyətinə cəlb olunmuş uşaq yoxdur.

Uşaqlar gələcəyimizin təməli, inkişafımızın qarantıdır. Onların xoşbəxt yaşamasına, sağlam böyüməsinə çalışmaq, müdafiəsinə hamılıqla qoşulmaq hər bir vətəndaşın borcudur. Çünki uşaqlara verilən dəyər ölkəmizin sabahına verilən dəyərdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Könüllü qanvermə aksiyası keçirilib

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə könüllü qanvermə aksiyası keçirilib.*



Naxçıvan Muxtar Respublika Xəstəxanasında baş tutan bu aksiyada əvvəlcə donorlardan koronavirus, arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Donorların müayinəsini və qan götürülməsini həyata keçirən Mərkəzi Qan Bankı şöbəsinin müdiri Məmmədəli Həsənov ölkəmizdə qan köçürülməsinə ehtiyacı olan uşaqların müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən layihələrdən danışıb. O bildirib ki, müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar və doğuşlar zamanı qanitirmələrdə, xroniki qanazlığında, qanın irsi və qazanılmış xəstəliklərində, onkoloji xəstəliklərdə, daxili orqanların – ürək, böyrək, mədə-bağırsaq, qaraciyər və digər müxtəlif xəstəliklərində qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur.

Qanvermə aksiyasında iştirak edən könüllü donorlar – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Vüsalə Vəliyeva və Naxçıvan Şəhər Məşğulluq Mərkəzinin direktoru Elman Eyvazov bildiriblər ki, başqalarının yaşaması üçün imkanımız daxilində olanı, əlimizdən gələni etmək həyatda ən vacib və gərəkli əməllərdən biridir. Aksiyada 32 nəfər könüllü olaraq qan verib. Tədarük olunan 16 litr qan Mərkəzi Qan Bankına təhvil verilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Uşaq və gənclər arasında muxtar respublika üzrə ifaçılıq müsabiqəsinə start verilib



Dünən Naxçıvan Dövlət Filarmoniyasında Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə muxtar respublika üzrə ifaçılıq müsabiqəsinə start verilib. Müsabiqədə Naxçıvan Musiqi Kollecinin və muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində təhsil alan istedadlı uşaq və gənclər iştirak edirlər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi aparatının rəhbəri Piri Nağıyev müsabiqənin keçirilməsinin məqsəd və vəzifələri, musiqi mədəniyyətimizin inkişafı barədə məlumat verib. Qeyd edilib ki, muxtar respublikada musiqi sənətinin inkişaf etdirilməsi, gənc istedadların aşkara çıxarılması, onların ifaçılıq səviyyəsinin yüksəldilməsi əsas məqsədlərdəndir. Üç yaş qrupu (8-11, 12-15 və 16-19) olmaqla, tar, kamança, qanun, saz, balaban, qarmon, fortepiano, skripka, klarnet, truba, fleyta ixtisasları üzrə keçirilən müsabiqəyə 300 nəfərə yaxın iştirakçı qatılıb.

Qeyd edək ki, müsabiqənin ilk günü fortepiano ixtisası üzrə I, skripka ixtisası üzrə I, III və fleyta ixtisası üzrə II və III yaş qrupları üzrə iştirakçılara baxış keçirilib. İyun ayının 9-na qədər davam edəcək müsabiqənin qalibləri yekun tədbirində mükafatlandırılacaqlar.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

Dövlət proqramı icra olunur

## Uşaqların sağlamlığına qayğı gələcəyimizə qayğıdır

Uşaqlar xalqın ən qiymətli sərvəti, cəmiyyətin gələcəyidir. Bu gələcəyin möhkəm təməllər üzərində qurulması uşaqların sağlam və cəmiyyətə faydalı vətəndaş kimi böyüdülməsindən əhəmiyyətli dərəcədə asılıdır. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır"***.

Naxçıvan Muxtar Respublikasında dövlət uşaq siyasəti özünün ən parlaq dövrünü yaşayır. ***"O cəmiyyət möhkəmdir ki, o dövlət inkişaf edərək irəli gedir ki, o xalq xoşbəxt gələcəyə malikdir ki, orada uşaqlara qayğı var"***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı tədbirlərin mərkəzində dayanan ən mühüm faktor məhz uşaqların təhsili, asudə vaxtlarının səmərəli təşkili və sağlamlıqlarının qorunmasıdır. Ali Məclis Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın da məqsədi uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə, onlar arasında xəstələnmənin, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azaldılmasından ibarətdir.

Görülən işlərin mühüm bir hissəsini uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və avadanlıqlarla təchiz olunması təşkil edir. Birinci rübdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Şərur rayonunun Şəhriyar, Ordubad rayonunun Yuxarı Əndəmic, Nüsnüs və Şahbuz rayonunun Ağbulaq kəndlərində həkim ambulatoriyalarının istifadəyə verilməsi muxtar respublika əhalisinin, o cümlədən uşaqların sağlamlığının diqqət mərkəzində olmasının mühüm təzahürüdür.

Qeyd olunanlarla yanaşı, yanvar-mart aylarında Dövlət proqramının icrası məqsədilə 1012 uşaq üçün elektron kart sifariş olunmuşdur. Həmçinin bu dövrdə dispanser qeydiyyatına daxil olan 108 uşağın bütün məlumatları elektron kartlara əlavə edilmişdir.

Proqramda sağlamlıq imkanları məhdud uşaqlarla bağlı nəzərdə tutulan tədbirlərin mütərəqqi əhəmiyyəti vardır. Muxtar respublikamızda bu kateqoriyadan olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər xüsusi önəm kəsb edir. Onların bərpa müalicəsinin təşkili, müxtəlif reabilitasiya vasitələri ilə təminatı bu sosial kateqoriyanın nümayəndələrinin cəmiyyətə daha sağlam inteqrasiya olunmasına imkan yaradır. Bu istiqamətdə birinci rübdə Naxçıvan Uşaq Bərpa Mərkəzinə 7 uşaq yönləndirilmişdir. Naxçıvan Regional İnformasiya Mərkəzində 16 sağlamlıq imkanları məhdud uşaqla reabilitasiya tədbiri aparılmış, Defektoloji bölmənin Şərur rayon filialına 2, Ordubad rayon filialına 1 uşaq cəlb olunmuşdur. Birinci rübdə 7 sağlamlıq imkanları məhdud uşaq texniki reabilitasiya və digər köməkçi vasitələrlə təmin edilmişdir. Görülən işlər muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların xüsusi qayğı ilə əhatə olunduğunu deməyə əsas verir.

Uşaqların sağlamlığının mühafizəsi işinin müasir tələblər əsasında qurulmasında onlara tibbi yardım göstərən səhiyyə işçiləri üçün seminarların, treninqlərin, təcrübə kurslarının təşkili, müxtəlif mövzulu metodik vəsaitlərin hazırlanması və tədrisi xüsusi önəm daşıyır. Bu istiqamətdə həyata keçirilən tədbirlər uşaqlara tibbi xidmət göstərilməsi sahəsində ixtisaslı kadr hazırlığının təmin olunmasına şərait yaradır. Dövlət proqramının icrasına uyğun olaraq yanvarın 12-də Culfa Rayon Mərkəzi Xəstəxanasında "Peyvəndlərin vurulması zamanı rast gəlinən nadir ağırlaşmalar və bu ağırlaşmalarda müşahidə olunan xəstəliklərin qarşısının alınması və müalicəsi" mövzusunda həkimlər, tibb bacıları və rayonun tibb məntəqələrinin işçiləri üçün seminar keçirilmişdir. Əhaliyə, o cümlədən uşaqlara göstərilən tibbi xidmətin həcminin və keyfiyyət standartlarının beynəlxalq tələblərə uyğunlaşdırılması üçün 56 sayda müxtəlif xəstəliklər üzrə tibbi protokollar yenidən hazırlanmış, Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən fevral ayında təsdiq olunmuşdur. Birinci rübdə uşaqlarda təcili təxirəsalınmaz vəziyyətlərin yaranma səbəbləri və onların aradan qaldırılması yolları haqqında Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanası tərəfindən metodik vəsaitlərin hazırlanmasına başlanılmışdır. Xəstəxanada "Temperaturu olan uşaqlara tibbi yanaşma tərzi" və "Mədə və bağırsaq infeksiyalarında ilkin müdaxilə" mövzularında tibb işçiləri arasında treninqlər təşkil edilmişdir.

Birinci rübdə uşaqlar və böyüklər arasında rast gəlinən xəstəliklərin müalicəsində beynəlxalq təcrübənin öyrənilməsini təmin etmək məqsədilə 7 həkim Bakı şəhərinə təcrübə kursuna göndərilmişdir. Uşaqların dispanserizasiyasını həyata keçirən və onlara ilkin tibbi xidmət göstərən tibb müəssisələrinin işçilərinin hazırlıq səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində olmuş, 18 tibb işçisi Naxçıvan Tibb Kollecində müxtəlif ixtisaslar üzrə təcrübə kurslarına cəlb edilmişdir.

Dövlət proqramında nəzərdə tutulan tapşırıqların vaxtında icra olunması uşaq xəstəliklərinin erkən aşkar edilməsi və müalicəsi üçün yeni imkanlar yaradacaqdır.

**"Şərq qapısı"**

## Peşəkar hərbçilər yetişdirən ixtisas hazırlığı kursları başa çatıb



***Naxçıvan Qarnizonu Qoşunlarında peşəkar hərbçilər yetişdirən ixtisas hazırlığı kurslarının başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.***

Mərasimdə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi yad edilib. Dövlət himnimiz səsləndirildikdən sonra polkovnik Mübariz Rzayev kurslar zamanı hər bir kursantın müasir hərb elminə aid yeni biliklərə yiyələndiyini və onların praktik vərdişlərinin təkmilləşdirildiyini qeyd edib.

Məzunlar adından çıxış edən Vətən müharibəsi iştirakçısı Siruz Musayev keçirilən kursların əhəmiyyətindən danışıb, xidmət müddətində və kurslarda qazandıqları yeni taktiki bilikləri hər bir döyüş tapşırığının icrası zamanı uğurla tətbiq edəcəklərinə söz verib.

Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb. Bildirilib ki, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 18 illik siyasi rəhbərliyi dövründə daim Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi məsələsini diqqət mərkəzində saxlayıb. Göstərilən diqqət və qayğı nəticəsində doğma Naxçıvanımız güclü müdafiə qüdrətinə və müzəffər Əlahiddə Ümumqoşun Orduya malikdir. Muxtar respublikanın müdafiəsində uğurla dayanan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları 44 günlük Vətən müharibəsində də qəhrəmancasına və şücaətlə döyüşərək düşmənə sarsıdıcı zərbələr endirib, işğal altında olan torpaqlarımızın azad edilməsində fəal iştirak ediblər.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib, nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və tribuna önündən təntənəli keçid olub.

Sonda xatirə şəkli çəkdirilib.

## Komanda-qərargah təlimi uğurla yekunlaşıb

Naxçıvan Qarnizonu Qoşunlarında mayın 17-də başlayan komanda-qərargah təlimi başa çatıb. Təlimin sonuncu mərhələsində bölmələrin yaranmış taktiki şəraitə uyğun olaraq bir istiqamətdən digərinə yerdəyişməsi həyata keçirilib. Xüsusi təyinatlı bölmələr şərti düşmənin müdafiəsindəki ara boşluğundan yararlanaraq müdafiənin dərinliklərində hakim yüksəkliklərin ələ keçirilməsi üçün təyin olunmuş rayonlara çıxarılıb.

Motoatıcı və tank bölmələri artilleriya bölmələrinin atəş dəstəyi ilə hücumu dərinliyə doğru irəlilədərək şərti düşmənin canlı qüvvəsini və döyüş texnikalarını məhv ediblər.



Aidiyyəti üzrə birləşmə və bölmələrdə təlimin nəticələri təhlil olunub, aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində və qazanılan təcrübələrin növbəti təlimlərdə tətbiq edilməsi barədə müvafiq tapşırıqlar verilib.

**Kənan CƏLİLOV**

***Şanlı Vətən müharibəsində əldə edilən parlaq qələbə həm də hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanıldı. Yüksəkliklərdə doğma Vətənimizin keşiyini çəkən oğullarımızdan biri olan Sadiq Həsənov da belə peşəkar hərbçilər sırasında idi. O, ömrünün 18 ilini dözümlülük, möhkəm iradə, xüsusi peşəkarlıq tələb edən hərbçi peşəsinə həsr etmişdi. Muxtar respublikamızda, eləcə də ölkəmizin müxtəlif bölgələrinə ezam olunmuş, harada olmasından asılı olmayaraq, öz vəzifəsini layaqətlə, məsuliyyətlə icra etmişdir. Gəlin əvvəlcə Sadiq Həsənovu yaxından tanıyaq.***

Əfsanəyə dönən ömürlər

## 18 il sədaqətlə Vətənin keşiyində



Qəhrəmanımız bir payız günü, 1986-cı il sentyabrın 24-də Naxçıvan şəhərində dünyaya göz açmışdı. 1992-2000-ci illərdə Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə təhsil almışdı. Dərslərini yaxşı oxuyur, hərbçi olmaq arzusu ilə yaşayırdı. Elə bu məqsədinin də dalınca gedir. 2000-2003-cü illərdə təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında davam etdirir. Burada oxuduğu müddətdə verilən tapşırıqların öhdəsindən layiqincə gəlir. Məhz bunun nəticəsi olaraq 2003-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. 2007-ci ildə həmin məktəbi motoatıcı ixtisası üzrə bitirir. 2007-ci ilin iyul ayından 2008-ci ilin iyun ayınadək Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində dinləyici, 2008-ci ilin iyun ayından 2015-ci ilin yanvar ayınadək müxtəlif hərbi hissələrdə motoatıcı taqım komandiri, tank əleyhinə taqım komandiri kimi qulluq edir. 2015-ci ildən 2019-cu ilin yanvarınadək yenə də müxtəlif hərbi hissələrdə nizami hissə rəisi – qərargah rəisinin şəxsi heyətin uçotu üzrə köməkçisi vəzifələrində çalışıb. 2019-2020-ci illərdə müxtəlif hərbi hissələrdə təlim və tərbiyəvi işlər üzrə müavin vəzifəsini icra edib...

Sadiq Həsənovun həyatı, şəxsi keyfiyyətləri haqqında daha geniş məlumat almaq üçün onun yaşadığı Naxçıvan şəhərindəki evə yollanıram. Evə daxil olanda Sadiq bizi "qarşılayır", gülümsəyən siması, naxçıvanlılara xas qonaqpərvərliyi ilə. Evin divarlarından asılmış fotolar, sanki canlıdır, dili olsa, danışacaqmış kimi baxır bizə. Evin bir küncündə "Şəhid mayor Sadiq Həsənov" adı altında onun uzun illik hərbçi fəaliyyətini əks etdirən, uğurlarının bir araya toplandığı guşə yaradılıb. Bu, şəhidimiz haqqında az da olsa, məlumat verir... Sadiqin həyat yoldaşı Sona Fərəcova ilə həmsöhbət oluruq. Öyrənirəm ki, Sadiq Sona xanımın xalası oğlu olub. Onun dediklərindən: – 10 il tamam idi ki, ailə qurmuşduq. İki qız övladımı – 9 yaşlı Lalə və 5 yaşlı İncimizi mənə yadigar qoyub gedib. Hərbçi peşəsini sevərək seçmişdi, qürur duyurdu hərbçi olmağı ilə. Bu onun uşaqlıqdan arzusu idi. Bütün həyatını bu peşəyə bağlamışdı. Onu da deyim ki, hərbçi peşəsi hər adamın öhdəsindən gələ biləcəyi sahə deyil. Bu sənətdə şəxsi istəklə yanaşı, cəsarət, dözümlülük lazımdır. Sadiq peşəsi ilə əlaqədar müxtəlif yerlərə ezam olunurdu. Gəncə, Naftalan, Tərtər, hələ bunlar bir neçəsi idi. Mən də onunla birgə hara gedirdi gedirdim, tək qoymurdum onu. Sonuncu xidmətdə olduğu Ordubad rayonundan mayor rütbəsi ilə Ağcabədiyə göndərildi. Bir ildən çox olardı ki, orada xidmət edirdi. Tale elə gətirdi ki, bu dəfə onunla gedə bilmədim, pandemiya imkan vermədi. Sonuncu dəfə ötən ilin may ayında gördük bir-birimizi. Sağ-salamat qayıdıb gələcəyəm, – dedi. Deyirdi, balaca qızımı gəlib özüm aparacağam məktəbə. İnci (balaca qızı) də hər gün deyir ki, atam gələcək. Mən böyüyəndə o gələcək. Sadiqi itirməyimiz 7 aydan çoxdur. Ancaq yenə də mənə elə gəlir ki, o, gülər üzü ilə indicə qapıdan içəri girəcək. Sadiq adı kimi ailəsinə, dostlarına, ən əsası isə Vətəninə sadiq adam idi. Hamıya qarşı mehriban idi. Atasını, anasını, qardaşını həddən artıq çox istəyirdi. Anası xəstə idi, maaşını alar, gətirib ona verərdi. Bununla da onun az da olsa, kefini açacağını hesab edərdi. Seçilmiş insan idi Sadiq. Şəhidlərimizin hamısı seçilmişdir. Hər şeyin yerini bilən idi. İşdən yorğun gəlsə də, zarafatından geri qalmaz, hamını güldürərdi.

Sona xanım hüznlə deyir ki, şəhidlik xəbəri gələnə qədər Sadiqin müharibə iştirakçısı olduğunu bilmirdik. Bizə deməmişdi. Qardaşı bilirmiş, ona söz verdiyi üçün Toğrul (qardaşı) da deməmiş. Hər gün eyni vaxtda zəng edərdi. Həmişəki kimi deyib gülər, uşaqlarla danışardı. "Haradasan?" sualını verəndə isə sözü tez dəyişərdi. Oktyabrın 18-i sonuncu dəfə danışdıq telefonla. Müstəqillik günü idi, bizi də bu gün münasibətilə təbrik etdi. Bizə harada olduğunu bildirməmək üçün əsgər yoldaşına dedi ki, mənim yerimi buradan sal. Amma, yəqin ki, haradasa, dağda-daşda, torpaqda yatacaqdı. Sonralar müharibədə iştirakı ilə bağlı şübhə yarandı məndə. Son sözü də "səbir edin, qayıdıb gələcəyəm" oldu. Qızlarını həddən artıq çox istəyirdi. Həmişə mənə deyərdi ki, qoyma uşaqların ürəkləri sıxılsın, nə istəyirlərsə al, ver. Allah rəhmət eləsin ona. Müharibəyə gedən ya qazi, ya şəhid, ya da qalib olur. O həm şəhid, həm də qalib oldu. Şəhidliyi ilə böyük Qələbəni qaçılmaz etdi, əbədiyyətə qovuşdu. Sadiq onu sevənlərin qəlbində daim yaşayacaq.

Qardaşı Toğrul Həsənov söhbətə qoşulur: – Sadiq məndən iki yaş balaca idi. Eyni məktəbdə oxumuşuq. Uşaq vaxtlarından böyük qardaşım kimi məni qoruyar, müdafiə edərdi. O vaxtdan bəlli idi, uzun illər sonra işğal altındakı torpaqlarımızın da müdafiəsinə qalxacağı, hamıya qismət olmayan ən ülvi adı – şəhid adını alacağı. Ölümündən 10 gün əvvəl mənə xəbər çatdı müharibədə olmasından. Dedi ki, heç kəsə bildirmə, mən qabağa gedirəm, uşaqlardan muğayat olarsan. Axırıncı dəfə oktyabr ayının 18-i danışdıq. Oktyabrın 19-u artıq ona zəng çatmadı. Daha sonra döyüş yoldaşı zəng etdi ki, Sadiq yaxşıdır. Amma onun səsindən hiss etdim ki, qardaşıma nə isə olub. Döyüş yoldaşları deyirlər ki, oktyabrın 19-u şiddətli döyüşlər zamanı Sadiq böyük şücaət, qəhrəmanlıq göstərib, əsgərlərini amansız düşmənin caynağından xilas edib. Hətta güclü döyüşlərin birində minamyot düşüb yanlarına, ancaq partlamayıb. Sadiq də deyib ki, indi ölmədimsə, bundan sonra mənə heç nə olmaz. Bundan daha da cəsarətlənib düşmən üzərinə gedib. Oktyabrın 20-si yenə də döyüşlərdə cəsarətlə iştirak edib, son damla qanınadək vuruşub, şəhid olub. Onun şəhid olması xəbərini eşidənlər bu gün də zəng edirlər. Qətərdən, Rusiyadan, Bakıdan çoxlu zənglər gəlir. Biri deyir ki, Sadiq 15 gün komandirim olub, o biri onun mərdliyindən, dözümlülüyündən danışır. Gör dostlarına, əsgərlərinə nə qədər yaxşı olub ki, ölümündən sonra da onu axtarırlar.

Müsahibim bildirir ki, Sadiq öz peşəsinin öhdəsindən həmişə layiqincə gəlib. Dəfələrlə işində fərqləndiyinə, əldə etdiyi yüksək nailiyyətlərə görə III dərəcəli "Qüsursuz xidmətə görə" medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilib. Bu gün bizi işğaldan azad edilmiş torpaqlarımız ovundurur. Qardaşım Naxçıvan şəhər qəbiristanlığında dəfn olunub. Deməli olar ki, hər gün gedib qəbrini ziyarət edirəm. Sadiq bizim qəlbimizdə yaşayır, yaşayacaq, şərəfli ömür yolu ilə daim xatırlanacaq.

*Qeyd edək ki, Vətən müharibəsində vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Prezident cənab İlham Əliyevin müvafiq sərəncamları ilə Sadiq Əli oğlu Həsənov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə də təltif edilib.*

**Güntac ŞAHMƏMMƏDLİ**

*Azərbaycan cəmiyyəti həmişə uşaqlara məhəbbətlə yanaşıb, onların sağlam və gümrah, eyni zamanda savadlı və vətənpərvər böyümələri üçün hər cür şərait yaratmağa çalışıb, necə deyərlər, hər şeyin yaxşısını uşaqlara verib. Uşaq ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir. Bu qiymətli sərvəti fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyətə faydalı vətəndaş, Vətənə sadiq övlad kimi böyütmək çətin və məsuliyyətli olduğu qədər də şərəflidir. Əgər gələcəyimizi bu günün uşaqlarına əmanət ediriksə, onların düzgün tərbiyə olunması, hansı ideyalara qulluq etməsi hər birimizi ciddi düşündürməlidir. Ona görə də uşaqlara hər zaman diqqət və qayğı göstərilir, onların düzgün tərbiyə olunmalarına, qarşılaşdıqları problemlərin aradan qaldırılmasına, hərtərəfli təhsil almalarına dövlət səviyyəsində nəzarət edilir. Axı uşaqlar dövlətin gələcəyi, dayağıdır.*

# Uğurlu gələcək onların təbəssümündən başlayır




Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət uşaq siyasəti ölkəmizdə uşaqların hərtərəfli və ahəngdar inkişafının təmin edilməsinə yönəlmişdir. Ulu öndər dəfələrlə vurğulamışdır ki, müstəqil dövlətimizdə uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetişməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Bəli, bu gün dövlətimiz hər bir azərbaycanlı uşağının yüksək sosial-mənəvi mühitdə böyüməsinə çalışır. Məqsəd uşaqların layiqli, firavan yaşayış səviyyəsinin, təlim-tərbiyəsinin, təhsilinin, sosial müdafiəsinin, sağlamlığının yüksək səviyyədə təşkil edilməsidir.

Son illər ərzində sürətli inkişaf yolu ilə irəliləyən Azərbaycanda olduğu kimi, muxtar respublikada da uşaqlarımızın hərtərəfli böyüməsi, cəmiyyətə layiqli vətəndaş kimi yetişməsi, onların hüquqlarının qorunması istiqamətində həyata keçirilən çoxşaxəli təşəbbüslər uğurla reallaşdırılmaqdadır. Demək olar ki, diyarımızın bütün rayonlarında müasir infrastruktura malik uşaq bağçaları fəaliyyət göstərir. Ulu öndərin siyasi kursunun layiqincə davam etdirilməsi bu gün bütün sahələrdə olduğu kimi, uşaqlara olan diqqət və qayğıda da özünü büruzə verir. Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasında olduğu kimi. Bağçanın müdiri Aynur Əhmədova həyatını uşaqların tərbiyəsinə həsr edib desək, yanılmarıq. Çünki illərdir ki, bu sahədə çalışır. İlk öncə 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə bütün uşaqları təbrik edən Aynur xanım bildirdi ki, uşaqlar Azərbaycanda əhalinin, təxminən, 30 faizini təşkil edir. Ulu öndər Heydər Əliyev uşaqlara dövlət səviyyəsində qayğını həmişə diqqətdə saxlayırdı. İndi də uşaqlara qayğı ildən-ilə artır. Prezident cənab İlham Əliyevin sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi bu sahəyə diqqətdən xəbər verir. Bütün bunlar həm də onu göstərir ki, Azərbaycan dövləti uşaqların sabahının təminatı üçün böyük tədbirlər görür. Muxtar respublikamızda da gələcəyimiz olan övladlarımız hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Diyarımızda müasirtipli məktəblər, tibb ocaqları, idman kompleksləri tikilir, təmir edilir. Və əlbəttə ki, balalarımız da bu şəraitdən maksimum istifadə etməklə bilik və bacarıqlarını artırmaqdadırlar.

Aynur müəllim qeyd etdi ki, bu dövlət qayğısından, yaradılan şəraitdən yetərincə bəhrələnən Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasında 245 uşaq tərbiyə alır, 27 tərbiyəçi-müəllim fəaliyyət göstərir. Ümumilikdə, 54 nəfərdən ibarət olan kollektivdə onlar üçün hər cür şərait yaradılıb. Bu il isə 80 nəfər uşaq məzun olub. Uşaqların müxtəlif müsabiqələrdə iştirakını əks etdirən şəkillərə, qazandıqları mükafatlara, fəxri fərmanlara baxanda burada tərbiyəvi işlərin düzgün qurulduğu aydın görünür. Bu bağçanın uşaqlarının Naxçıvan şəhərində təşkil edilən "Arıçılıq məhsulları – bal festivalı"nda hazırladıqları əl işləri diploma layiq görülüb. Bağçamız Naxçıvan Muxtar Respublikasının 90 illiyi ilə əlaqədar "Naxçıvanım mənim", "İdeal ailənin formulu – ənənəvi dəyərlər və müasirlik" mövzularında tətbiqi sənət müsabiqələrində uğurla iştirak edib. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Milli dəyərlər və uşaqların aləmi", "İntibahın zəfərləri ilə böyüyürük biz", "Azərbaycan kinosu uşaqların gözü ilə", "Uşaqlar və milli rəqslər" və 2014-cü ildə ulu öndər Heydər Əliyevin 91 illik yubileyinə həsr olunmuş şeir müsabiqələrində də iştirak edərək nailiyyətlər qazanıblar.

Qeyd edək ki, bu yaxınlarda Naxçıvan şəhəri üzrə bağçalarda məktəbəqədər qruplar arasında keçirilən bilik və bacarıq müsabiqəsinin qalibi 11 nömrəli uşaq bağçası olub. Müsahibim yurdumuzda uşaqlara göstərilən dövlət qayğısından razılıqla danışdı. Dedi ki, bütün bunlar onların sevincimiz, xoşbəxtliyimiz və cəmiyyətin gələcəyidirlər.

Üz tutduğumuz digər tərbiyə müəssisəsi Naxçıvan şəhər 5 nömrəli uşaq bağçası oldu. Bağçanın müdiri Cəmilə Hüseynova söhbət əsnasında dedi ki, bu gün muxtar respublikamızda fəaliyyət göstərən məktəbəqədər müəssisələr uşaqların təlim-tərbiyəsində mühüm rola malikdir. Bağçamızda ölkəmizin gələcəyi olan uşaqların sağlam, milli ruhda yetişdirilməsi üçün lazımi şərait vardır. Bu yaradılanlar uşaqların yüksək sosial-mənəvi mühitdə böyüməsinə, ilkin təhsilinin müasir səviyyədə təşkil olunmasına imkan verir. Nəzərinizə çatdırım ki, bağçamızda keçirilən tədbirlərdə, məşğələlərdə, idman oyunlarında müsbət nəticələr əldə olunub. Məktəbə hazırlıq qruplarından uşaqlar məktəblərə tam hazır səviyyədə gedirlər. Bu ildə bağçamızdan 60 uşaq məzun oldu. Uşaqların qədəm qoyduğu məktəblərdən bağçamıza təşəkkürlər gəlir ki, bu da bizim kollektivi sevindirir və daha çox məsuliyyətli olmağımıza zəmanət yaradır. Hazırda bağçada 242 uşağın təlim-tərbiyəsi ilə 25 tərbiyəçi-müəllim məşğul olur.

Bu gün yetişən gənclərin sabahın qurucuları olduğunu söyləyən bağçanın müəllimi Hicran Abdullayeva bildirdi ki, əgər uşaqlar bağcada məktəbəqədər tərbiyəni, təhsili, təlimi düzgün alarsa, onlar məktəbdə tədris proqramını daha tez mənimsəyər və müasir təhsil metodlarını qavramaqda çətinlik çəkməzlər. Muxtar respublikada uşaqlar üçün yaradılan şəraitin nəticəsidir ki, bu gün onlar məktəbəqədər tərbiyə müəssisələrinin dərnəklərində fəal iştirak edirlər. Bu isə onların gələcəkdə məktəb həyatında uğurlu addım atmalarına şərait yaradacaq.





Qeyd edək ki, Vətən müharibəsində şəhidlik məqamına ucalan Məmmədcəfər Sadiqlinin övladı da bu bağçada tərbiyə alır. Burada olarkən Uğur Sadiqlinin anası Şərəbanu Sadiqli bağça ilə bağlı xoş təəssüratlarını bizimlə bölüşdü. O, ilbəil deyil, günbəgün gözəlləşən, böyüyən, inkişaf edən Naxçıvan şəhəri ilə qürur duyduğunu bildirərək dedi ki, bu gün biz valideynlər üçün əsl bayramdır. Çünki uşağının belə bir bağçada tərbiyə alması hər bir valideyn üçün böyük sevincdir. Məktəbəqədər tərbiyə müəssisələrində uşaqların tərbiyəsi, onlara ilkin biliklərin dərindən öyrədilməsi və əsl vətəndaş kimi yetişdirilməsi hər zaman diqqət mərkəzindədir.

*Əziz uşaqlar, siz bilməlisiniz ki, Azərbaycan kimi ölkədə yaşamaq xoşbəxtlikdir. Azərbaycan sülhsevər, sabit ölkədir, biz hər zaman öz müstəqilliyimizi, sabitliyimizi və təhlükəsizliyimizi qoruyacağıq. Görülən bütün işlər, atılan addımlar sizin gələcək xoşbəxtliyiniz naminədir. Bizim əsas amalımız gələcəkdə sizi mənəvi və fiziki cəhətdən sağlam, güclü, savadlı, Azərbaycanın layiqli vətəndaşı kimi görməkdir.*

**Aytac CƏFƏRLİ**

# Azərbaycan çempionatının qalibləri məlum olub



Naxçıvan Muxtar Respublikasında ilk dəfə təşkil olunan şahmat üzrə qadınlar arasında Azərbaycan çempionatına yekun vurulub.

Son turda naxçıvanlı şahmatçı Nəsrin Babayeva (1704) beynəlxalq usta Gövhər Beydullayeva (2263) ilə üz-üzə gəlib və məğlub olub. Digər zəka sahibimiz Nazlı Hümbətova (1381) da eyni aqibətlə üzləşib. O, sonuncu turda beynəlxalq usta Səbinə İbrahimovanın (2213) müqavimətini qıra bilməyib. Yarışın lideri beynəlxalq usta Gülnar Məmmədova (2382) bu turda ən yaxın izləyicisi qrossmeyster Zeynəb Məmmədyarova (2274) ilə görüşdə "sülh"ə imza atıb. Qrossmeyster Ülviyyə Fətəliyeva (2301) və qrossmeyster Xəyalə Abdulla (2263) arasında keçirilən oyunun qalibi isə ikinci olub. FIDE ustası Ləman Hacıyeva (1982) ilə Mələk İsmayılın (1997), FIDE ustası Ayan Allahverdiyeva (2088) ilə Səbinə Rzalının (1925) görüşləri heç-heçə başa çatıb.

Yekun nəticəyə əsasən Gülnar Məmmədova 9 xalla Azərbaycan çempionatının qalibi olub. 7,5 xal toplayan Gövhər Beydullayeva ikinci, qrossmeyster Zeynəb Məmmədyarova üçüncü olub.

Sonda qalib şahmatçılar Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən hazırlanmış xüsusi rozet, əllə çəkilmiş portretləri və pul mükafatı, Gülnar Məmmədova isə kubokla təltif olunub.

Qeyd edək ki, ölkə birinciliyinin qalibi Azərbaycanı Dünya Kubokunda təmsil edəcək. Digər iki pillənin sahibləri isə şəxsi Avropa çempionatında mübarizə aparmaq hüququ qazanıblar.

**Ceyhun MƏMMƏDOV**

# Beynəlxalq usta Gülnar Məmmədova: "Naxçıvanda qalibiyyət qazanmağım mənim üçün ikiqat sevincdir"




*Naxçıvan şəhərində təşkil edilən qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatının qalibi qadınlar arasında beynəlxalq usta Gülnar Məmmədova "Şərq qapısı" qəzetinə müsahibə verib:*

– 10 ilə yaxındır ki, Naxçıvanda keçirilən beynəlxalq şahmat festivallarında iştirak edirəm. İllərdir, qadınlar arasında təşkil edilən Azərbaycan çempionatında oynayıram. İlk dəfə Naxçıvanda qadınlar arasında Azərbaycan çempionatı keçirildi. Əvvəlcə deyim ki, Naxçıvan bütün yarışlarımda mənə uğur gətirib. Bu dəfə də belə oldu. Bunun da əsas səbəbi Naxçıvanda iştirakçılara yaradılan rahatlıq və yüksək səviyyəli şəraitdir. Burada oyuna daha çox adaptasiya oluram. Yarış zalının ab-havası belə, bu adaptasiyanın formalaşmasına daha çox kömək oldu. Bu, şahmatda çox əhəmiyyətlidir. Bütün fikrimi oyuna cəmləşdirdim və digər şahmatçılarla aramızda mükəmməl rəqabət yarada bildik. Əlbəttə ki, şahmatda bir çoxu üçün mənəvi dəstək önəmlidir, amma mən tək olanda özümü daha güclü, məsuliyyətli hiss edirəm. Düzdür, şahmatla məşğuliyyətimdə anamın çox böyük rolu olub, müəllimim anam olub. Mənim şahmatçı olmağım onun arzusu olub. Çünki özünün hədsiz dərəcədə şahmata marağı var. Mən də onun istəklərini reallaşdırdım. Hazırda da bu sahə üzrə həmişə onunla məsləhətləşirəm. Deyim ki, şahmat mənim xarakterimə uyğundur və bu intellektual idman növü xarakterin formalaşmasında mühüm rol oynayır. Doğrudur, oyunlarda məğlubiyyət çox məyusluq yaradır, hətta çox vaxt ürəyə yük olur. Lakin güclü şahmatçı gərək unutmağı bacarsın. Burada rəqiblərim çox güclü idi. Hamısı ilə daha əvvəlcədən bir sıra şahmat oyunlarında qarşılaşmışdıq. Birillik fasilədən sonra onlarla canlı oyun mənə çox böyük ruh yüksəkliyi, əlavə stimul verdi. Naxçıvanlı şahmatçılarla ilk dəfə oynadım. Deyə bilərəm ki, Naxçıvanda şahmat inkişaf edir. Burada iştirak edən qızlar da çox yaxşı oynadılar, onların parlaq gələcəyi var. Mən yeddi ildir ki, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında şahmat müəllimi işləyirəm. Bu gün şahmatçı olmaq istəyənlər çoxdur. Tələbələrimlə məşğuliyyət həm şahmata, həm də həyata dair mənə çox şey öyrədir. Sevindiricidir ki, ölkəmizdə şahmatla məşğul olmaq istəyən gənclərin sayı artır. Burada qızlar da üstünlük təşkil edir. Bu gün şahmatçı qadınlarımız xaricdə ölkəmizi layiqincə təmsil edirlər. Sizə deyim ki, 10 il əvvəl məqsədimiz Avropa çempionatında onluğa düşmək idisə, 2019-cu ildə şahmat üzrə Avropa çempionatında üçüncü yeri qazandıq. Deməli, inkişaf var və artıq ön sıralarda yer tuturuq.

Qalibiyyətimlə bağlı deyim ki, ilk dəfə Naxçıvan şəhərində təşkil edilən qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatının qalibi olmaq qürurvericidir. Sözün açığı, buraya gələndə üçlükdə olmaq arzusunda idim. Lakin sona qədər çox inanaraq oynadım və rəqiblərimi üstələyərək qalib gəldim. Buradakı qalibiyyət mənim üçün ikiqat sevincdir. Çünki burada qalib gələn şahmatçı şahmat üzrə dünya kubokunda da ölkəmizi komanda ilə birgə təmsil edəcək. Mən də bu yarışda iştirak edəcəyəm. Bu mənim arzum olub və özümü çox xoşbəxt hiss edirəm. İnanıram ki, ölkəmizi burada da layiqincə təmsil edəcəyik.

**Güntac ŞAHMƏMMƏDLİ**

### İtmişdir

Mustafayev Eltun Eldar oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Mahmudkənd sakini Əhmədov Abuzər Ağəli oğlunun adına olan JN-176A inventar nömrəli, 10204028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər M.Şəhriyar küçəsində yaşayan Məmmədova Vüsalə Ramiz qızının adına verilmiş MH 0065717 nömrəli çıxarış və 104013013049 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 437